# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet № 45-46 (1175-1176) 14 dekabr 2023-cü il Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


Azərbaycan milli kitabxanası

# MƏMMƏD ƏLİYEV - 75

# SÖZÜN SEVGİ ÜZÜNDƏ

## ENERJİ İKSİRİ - YAZMAQ EŞQİ

**Bilmirəm, nədənsə mənə elə gəldi ki, yazmaq eşqi anlamınacan gərək bir sevgi də olsun. Çünki sevgidən keçmədən, məhəbbətin iztirablı yollarını kəsmədən heç eşqə də çatmaq mümkün deyil. Axı eşq mərtəbəsi tanrının hüzurudur.**



Hərdən özümə də sual verirəm. Axı səni əzablar içində yazmağa vadar edən hissin adı nədir. Və bircə cavab ruhumun lap dərinliklərindən ancaq özümün eşidə biləcəyim bir hiss və duyğu ilə dilə gəlir; bəs sevgi? Axı sən sevirsən. İstər-istəməz sevgimin ünvanı bütün parlaqlığı ilə gözümün qabağında canlanır. Bu sözdür, ilahi söz. Bəli, bu sevgidən, ilahi sözə sevgidən üz çevirmək... bəlkə də xəyanətlərin ən betəri olardı.

Məmməd Əliyev. Son vaxtlar onun yazılarında, kitablarında İrəcoğlu təxəllüsü də görünür. Həmişə demişəm ki, hər kəs öz adına ehtiramı gözünün önündə görməlidir. Nə yaşamaq, nə duymaq, nə də qeyri bir hiss görməklə əvəz oluna bilməz. Zənnimcə, Məmməd müəllim təbiətindən gəlmə elmi raclıq missiyası daşıyır. İstədim ki, bu ifadənin fərqinə varmaqla şərhini verim. Kompüterdə yazan Elvin buna yer qoymadı. Yəni, ümumşərq hind-sanskript mətnlərindən gəlmə düşüncə ilə zəngin fikri aləmin şahzadəliyini dərk etməyən bir kimsənin heç Məmməd Əliyevin zəngin mənəvi irsinə varmağı da mümkün olmaz.

Məmməd Əliyev çox dəyərli elmi əsərlər müəllifidir. Elmə isə orta əsr cəngavərlərisayaq döyüşkən bir ruhla gəlib.

Azərbaycan elmində, mənəvi düşüncəsində kifayət qədər görünə biləcək gücdə özünü təsdiq edib.

Əlbəttə, mən burada Məmməd İrəcoğlunun elmi əsərlərinin xronikasını, ona nüfuzlu böyük alim adı gətirən əsərlərinin siyahısını da təqdim edə bilərdim. Ancaq bütün bunlara yer qalmır: şəxsiyyət var, alimlik nüfuzu var. Bu öçüyəgəlməz mənəvi potensial deməkdir. Adam var ki, şöhrəti var, ona sevgi yoxdur. Demək, kəsərli nüfuzdan söhbət gedə bilməz. Məmməd Əliyevin bədii nəsri də heç də elmi düşüncəsinin bəhrəsi olan əsərlərindən aşağı gücdə deyil. "Həsrətin o üzü" romanlar silsiləsinin I hissəsinə yazdığı epiqraf mənim varlığıma xüsusi bir borc hissi qoyur: *"Hörmətli Əlirza müəllim! Keçən əsrin 60-70-80-ci illərində azəri gəncinin keçdiyi keşməkeşli həyat yolunu bütün reallıqları ilə əks etdirməyə çalışdığım əsərimi sizə kiçik bir xatirə kimi bağışlamaqla təskinlik tapır, güman edirəm ki, keçmiş həyatınızın bəzi epizodlarını, şəxsi portretinizin cizgilərini orada görəcəksiniz... Dərin hörmətlə, müəllif. 17.05.2022".* Kifayət qədər mənəvi məsuliyyət hissi aşılayır. Böyük müəllimliyin, böyük alimliyin nəyə qadir olduğu elə bu səmimi cümlələrdə də qədərincə görünür. Yəni, bir insan olaraq şəxsiyyət olaraq, alimliyinə müvazi olmaq elə budur.

O, Akademiyada "Türk xalqları ədəbiyyatı" şöbəsinin müdiridir. Zəngin idarəetmə təcrübəsi və vəzifə pillələri haqqında danışmağı artıq hesab edirəm. Ancaq mənim üçün ən qiymətli mərtəbə Çingiz Aytmatov, Orxan Pamuk, Manas, Dədə Qorqud haqqında yazılan məqalələrin müəllifi olmaqdır.

... Və yenə Məmməd Əliyevin nəsr yaradıcılığının təbii və səmimi qaynaqlarını axtaracaq gələcək tədqiqatçıların diqqətinə çatdırmaq istərdim: "Karvan köçər" romanında və digər nəsr əsərlərindəki səmimiyyət elə türk mənəvi qaynaqlarından gəlir. Yeri gəlmişkən, bu kitaba da maraqlı bir avtoqraf yazıb: *"İstedadı ümmanlar kimi coşub çağlayan şair, publisist, nasir, ictimai xadim Əli Rza Xələfliyə kiçik bir xatirə olaraq müəllifdən. 17.05.2022".* Səmimiyyətin, müasirinə doğmalığın, həsəddən, paxıllıqdan, bədxahlıqdan uzaq olmağın ən yaxşı göstəricisi elə duyğulanmaları göstərən öz sözünün ünvanıdır.

Bu qısa xronikal qeydlərdə əslinə qalsa, varlığımdan süzülüb gələn düşüncələrdə çox da fakt arxasınca getməyə lüzum görmədim. Yoxsa, Məmməd Əliyevin elmlər doktorluğu və professorluğa qədər yolunu göstərən, bu yolun Azərbaycan mənəvi mühitinə nələri bəxş etdiyini təsdiqləyən faktları sadalamalı olsaydım, məqam və imkan qarşımı kəsməli idi. Zənnimcə, Məmməd İrəcoğlu Əliyevin ünvanına yazılan bu kiçik, müxtəsər qeydlər onun böyük alimliyini və yazıçılığını, böyük ziyalılığını və insan olaraq şəxsiyyət ucalığını qədərincə göstərir. Özü demiş, həmyaşıdlarımın 70-ci illər dövrünü təzədən görmək istəyənlərə onun bədii nəsrini oxumağı rəva bilərdim. Vaxt və imkan burada bəhanə ola bilməz.

Bəzən böyükləri dağların o biri üzündə axtarırıq. Ancaq unuduruq ki, böyüklərsiz dağların o biri üzünə yox, heç ətəyinə də gedib çatmaq olmaz. Məmməd müəllim, alim Məmməd Əliyev, yazıçı Məmməd İrəcoğlu ən çətin yollar üçün yoldaşlığa seçiləcək gücdədir. Zənnimcə ona bütün məqamlarda etibar etmək olar.

**Əli Rza Xələfli**
***13.12.2023***